

Xurcun. Yun. Xovsuz 128x57. XX əsrin əvvəlləri. Kərimbəyli kəndi, Salyan rayonu, Azərbaycan.

UOT 94 (479.24)

# Kolanılar

## (II məqalə)

Şahin Əhmədov
*tarixçi*

*e-mail: shahin_ahmedov@yahoo.com*

***Açar sözlər:*** *Kolanı tayfası,türklər, kənd, Qarabağ, Vedi, Naxçıvan,Şirvan*



Azərbaycanın diyarlarından olan Naxçıvan ərazisində tarixən yaşayan ən böyük türk tayfalarından biri də Kolanı tayfası olmuşdur. Tarixi Naxçıvan ərazisinə yüzilliklər boyu Vedi, Dərələyəz, Zəngəzurun cənub hissəsi, Qafan və Araz çayından cənubdakı bəzi bölgələr də daxil olmuşdur. Məqalədə kolanıların Naxçıvan ərazisində yaşaması məsələsinə bu areal prinsipindən yanaşılmış, XX əsrin əvvəllərindən isə Ermənistana verilən ərazilər "Qərbi Azərbaycan" kontekstində tədqiq olunmuşdur. Qeyd edək ki, tarixi Naxçıvan ərazisi kolanıların Azərbaycanın digər ərazilərinə də yayılma mərkəzlərindən biri olmuşdur.

Naxçıvan ərazisində kol tayfalarının (15, s.110-112) və kolanıların məskunlaşma tarixi qədimdir.

Apardığımızaraşdırmalarnəticəsindəbirçoxtarixifaktlarəsasında mənbələrdə "Koltene", "Qoğtan" və "Qoxtan" kimi əks olunmuş, əsasən indiki Ordubad və Culfa rayonlarının ərazisinin bir hissəsini əhatə edən qədim vilayətin və bu vilayətdə qədimdə mövcud olmuş Gilan şəhərinin burada məskunlaşan Kolanı tayfasının adı ilə bağlı olduğu, məntəqənin qədim dövrdə kolanıların Orta Asiyadakı keçmiş yaşayış yerlərinin adları ilə "Kulan" və ya "Kolan" yaşayış yerinin adı ilə adlandırıldığı, ərəb mənbələrindən başlayaraq bu adın əsasən "Gilan" formasında əks olunduğu (27, s.16) qənaətinə gəlirik.

I Şah Təhmasibin hakimiyyətinin son illərində Naxçıvanla bağlı mənbələrdə kolanılar barədə məlumatlar verilmişdir. Bu dövrdə Dərələyəz mahalına tabe olan Şahbuz dərəsində yerləşmiş Çay kəndinin (indiki Şahbuz rayonunun Qızıl Qışlaq kəndi) torpaqlarının bir hissəsinin Şahverdi bəy Kolanılı tərəfindən alınması barədə 1576-cı ilə aid bir sənəddə məlumat verilmişdir (23, s.12). Vedi və Dərələyəz mahallarının sakinləri olan bu tayfanın Dərəşahbuz bölgəsi ilə (Şahbuz rayonu) qonşu olması və bu bölgənin indiki Şahbuz rayonunun Kolanı kəndi ilə yaxın olması bu kəndə Kolanı tayfasının həmin dövlərdə də məskunlaşması və ya kəndin torpaqlarının o zaman Vedi-Dərələyəz bölgəsində yaşayan Kolanı tayfalarının qışlaq ərazilərindən biri olmasını göstərir. Arxeoloji cəhətdən də XVI-XVII əsrlərdə Şahbuz rayonunun Kolanı yaşayış yerində yaşayışın olduğu müəyyən edilmişdir. Deməli, bu ərazidə Kolanı tayfasının mövcudluğu, hələlik əldə etdiyimiz mənbələrə görə, XVI əsrə qədər gedib çıxır. "İrəvan əyalətinin icmal dəftəri"ndə 1590-cı ildə Dərəşahbuz nahiyəsində Suyu məzrəəsi, Qoyunlu və Dağ məzrəəsi kimi kəndlərin adının (ərazi tərk edildiyindən "boş sahə, boş yer" mənasında "məzrəə" olaraq dəftərə salınmışdır) qeyd olunmasına istinad edərək, XVII əsrdə Şirvanda yerləşmiş, oradan

Xalça. Yun. Xovlu. 347x112.
XIX əsrin sonları. Kolanı kəndi,
Şahbuz rayonu, Naxçıvan MR.





Məfrəş (fraqment). Yun. Xovsuz. 159x108. XIX əsrin sonları. Qarabağlar kəndi, Kəngərli rayonu, Naxçıvan MR.

da köç edərək Muğan bölgəsində məskunlaşmış Kolanı tayfası olan Qoyunlu tayfasının indiki Şahbuz rayonu ərazisindən köç etdiyini güman etmək olar. Bu dövrün mənbələrində Şahbuz ərazisində Kolanı kəndinin adının çəkilməməsi bu kəndin başqa adla adlanmasından irəli gələ bilərdi.

1579-cu ilə aid bir Osmanlı mənbəsində Şahverdi bəy Kolanılı Səfəvi dövləti ərazisində olan tayfa başçısı kimi xatırlanmışdır (13, s.320). Onun Çay kəndinin satılması ilə bağlı Kəngərli arxeoqrafik sənədlərində əks olunmuş Şahverdi bəy Kolanılı ilə eyni şəxs olduğu fikrindəyik. Osmanlı mənbəsində diqqəti çəkən digər cəhət budur ki, osmanlıların bir sıra Səfəvi hakimlərini onlara tabe olmağa dəvət edən məktublar yazırlar. Və bu məktublar Təbriz, Şərur, İrəvan və Kağızman şəhər hakimlərinə yazıldığı halda, Kolanılı Şahverdi bəyə ayrıca tayfa başçısı kimi ünvanlanmışdı (həmçinin İğdır bölgəsində olan Emin bəy Kolanılıya da eyni məzmunlu məktub yazılmışdı). Bu sənədlərə əsaslanaraq Şahverdi bəy Kolanılının Vedi-Dərələyəz bölgəsində, Emin (Əmin) bəy Kolanılının İğdır bölgəsində tayfa başçısı olması və hər iki tayfa başçısının şəhər hakimlərinə bərabər tutulan bir statusa sahib olduğunu göstərmək olar. Bu tayfanın məhz Kolanlı tayfası olması bizə Şahverdi bəyin və Emin bəyin Kolanlı soyadından, Dərələyəz mahalında olmuş Kolanı kəndi adından və sonralar Vedibasar mahalının Çimənkənd, Qaraqoyunlu, Kolanlı, Xınıt, Qaratorpaq, Xartlıq, Qızılxaraba, Kom, Rəşoğlu və Almalıq kəndlərində Kolanı tayfasının əksəriyyət və ya nəzərə çarpacaq qədər çox sayda olmasından məlumdur (7, s.62). 1590-cı ilə aid sənəddə Vedi nahiyəsində Cərmaris, Ciqin, Bağçacıq və Qızılviran kimi kəndlər qeyd olunmuşdur. Cərmaris kəndi sonrakı dövrlərdə "Cırmanis Kolanı" və son olaraq "Kolanlı" adlanmış, Qızılverən (Qızılviran) və Bağçacıq kəndləri də bu tayfanın yaşadığı kəndlərdən olmuşdur. Sonrakı mənbələr əsasında öyrənirik ki, bu tayfa nahiyədə qeyd olunan Ciqin kəndinin adı ilə bağlı olan Cığın dərəsində də yaşamışdır. Sonrakı dövrlərdə Vedibasarda yerləşən Kolanı kəndləri Dərələyəz mahalı ilə Vedibasar mahalının qonşuluğunda yerləşirdi. Dərələyəz mahalında eyniadlı kənd XVII əsrin birinci yarısınadək eyniadlı tayfaya məxsus yaşayış yeri olmuşdur. Bu tarixdən əhalinin köçü baş vermiş, kənddə iki qeyri-müsəlman sakinin məskunlaşdığı bildirilmişdir. Ehtimal ki, tayfanın Naxçıvan bölgəsindən və ya Qarabağdan Şirvan ərazisinə ilk köçləri də bu dövrlərdə baş vermişdir.

1654-cü ilə aid bir sənəddə Dərələyəz mahalında bu nəsildən olan Səfiqulu bəy Kolanılı və Əruz (Aruz, Ürüz) xanın adları çəkilir. Və Səfiqulu bəy oğlu Əruz xanın o zamankı Çay kəndinin ərazilərini ("Huremeşin" də adlanan bu kənd Şahbuz rayonu ərazisində yerləşir) tamamilə aldığı göstərilir (10, s.92; 23, s.12, 146-147). Bu nəsil 1576-cı ildə Vedibasar-Dərələyəz mahalında tayfa başçısı kimi qeyd olunmuş Şahverdi bəyin nəslindən idi. Bu fakt həm də onu göstərir ki, Dərələyəzdə bu tayfanın bir hissəsi hələ də öz yurdunda yaşayırdı və ya köçürülən əhalidən geri qayıdanlar olmuşdur. 1988-ci ilədək bu tayfanın daha çox Vedi və Dərələyəz sərhəddində yaşadığı görünsə də, bu yayılma bölgəsinin həmin vilayətlərin bir çox ərazisində olduğunu, yalnız kənd adlarının müxtəlifliyi səbəbindən bunun nəzərə çarpmadığını düşünürük. Orta əsrlərdə soyadın daha çox "oğlu" ilə göstərilməsini nəzərə aldıqda Əruz xan Səfiqulu bəy oğlu Kolanılının soyadını "Səfiqulu bəy oğlu" kimi qəbul edirik. Beləliklə, bu nəsildə "Kolanılı" adının tayfa adı kimi, yəni həmin nəslin tayfa mənsubiyyətini ifadə etmək üçün işləndiyi qənaətinə gəlirik. Şahverdi bəyin və onun



nəslinin malik olduğu ərazilər barədə ətraflı məlumat almaq üçün Əlyazmalar İnstitunda saxlanılan Şahverdi bəy Kolanılı oğullarına məxsus "Beynamə"nin araşdırılmasına ehtiyac vardır.

1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Dərələyəz mahalında adı çəkilən Kotanı kəndinin adının səhv yazıldığı və bu kəndin Kolanı kəndi olduğunu ehtimal edirik. Çünki həmin sənədin digər səhifələrində bu kəndin adı "Kolanı" şəklində yazılmışdır (21, s.35, 346). XVII əsrin əvvəllərinə aid olan mənbələrə əsasən məlum olur ki, Dərələyəz mahalının bu kəndinin əhalisi müharibə səbəbindən kəndi tərk etmişdir. Lakin mənbələrdə kəndin əhalisinin harada yerləşdiyi barədə məlumat əks olunmamışdır. Dərələyəz mahalının Cul və başqa kəndlərində də bu tayfanın məskunlaşması haqqında da məlumatlara rast gəlinir.

1727-ci ilə aid sənəddə Naxçıvanda Qışlağat nahiyəsinə tabe olan Kolanı kəndinin də adı çəkilir (21, s.171). Qışlağat nahiyəsində yerləşən bu kəndin ödədiyi vergi miqdarını, nahiyənin digər bütün kəndlərinin ödədiyi verginin miqdarı ilə müqayisə etdikdə, sözügedən kəndin nahiyyənin altıncı böyük kəndi olduğu qənaətinə gəlirik. Qışlağat nahiyəsi əsasən, indiki Culfa və Babək rayonlarının kiçik bir hissəsini və Arazın cənubundakı bir sıra əraziləri əhatə edirdi. Hal-hazırda Culfa rayonunun Ləkətağ kəndi yaxınlığında Kolanı yeri və Kolanısu çay qolu adı (bu adlar müvafiq olaraq əhali tərəfindən təhrif olunmuş formalarda "Kola yeri" və "Kolasu" şəklində də adlanır) və Babək rayonunda Kolanı toponimi (5, s.248-251) qalmışdır. Babək rayonunda və Culfa rayonunun dağlıq bölgəsində olan eyniadlı toponim əsasında bu iki ərazini müqayisə etmək imkanı yaranır. Mənbədə qeyd olunmuş Qışlağat nahiyəsinin Kolanı kəndinin indiki Babək rayonunda olması mümkündür. Çünki sənəddə qeyd olunur ki, bu kənddə əkinə yararlı torpaq olmaması səbəbindən, əhalidən bəzi vergilər alınmır. Bu faktı nəzərə alaraq, Culfa rayonunun dağlıq bölgəsinin yaylaq yerləri olduğu, bunun əksinə Babək rayonu ərazisindəki yerin quraq və şoranlıq olması əsasında qeyd olunan kəndin məhz Babək rayonu ərazisində olduğunu deyə bilərik.

Nadir 1736-cı ildə iki əsrdən artıq hakimiyyətdə olmuş Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyaraq özünü şah elan etdi. Və bundan sonra məlum sürgünlər başlandı. Kolanıların bir qolu olan Şeyxavənd tayfası Ərdəbil bölgəsində məskunlaşdı. Onlar Səfəvi dövlətinin yaradılmasında rolu olan Şeyxavənd tayfası ilə eyniadlıdırlar. Lakin onların eynimənşəli olması haqqında dəqiq fikir söyləmək mümkün deyil. Bəzi mənbələr Nadir şahın kolanıları Azərbaycana deyil, əksinə, Azərbaycandan sürgün etdiyini göstərir. Culfa və Babək rayonlarında indi toponim olaraq qalmış Kolanı kəndlərinin (və ya kəndinin) tərk edilməsi dövrü və səbəbləri məlum deyil. Bununla belə, bu köç Nadir şahın kolanıları Xorasana sürgün etməsi ilə əlaqədar ola bilər. Ancaq bu illərdə osmanlıların Azərbaycandan öz ərazilərinə köçürmə siyasətini xatırlasaq, bu köçün Osmanlı ərazisinə olmasını da ehtimal etmək olar. Türkiyənin Yozqat rayonunda yerləşən Kolanı kəndinin əhalisinin şiə olması və Azərbaycan dilinə yaxın ləhcədə danışması bu cəhətdən əhəmiyyətli faktdır. Bu dövrlə səsləşən daha bir tarixi fakt: XVIII əsrdə Şahbuz rayonunun eyniadlı kəndinin də tərk edildiyi arxeoloji qazıntılarla müəyyənləşdirilmişdir.

1812-ci ildə I rus-İran müharibəsi zamanı Abbas Mirzənin göstərişi ilə Pirqulu xan Qacarlı rus hakimiyyətini qəbul etməyən bu tayfanı Qarabağdan o zaman Qacarların əlində olan Naxçıvan və İrəvan bölgələrinə köçürdü (26, s.98). Onların bir hissəsi rus hakimiyyətini qəbul etməmiş və könüllü olaraq Abbas Mirzənin tərəfinə keçmişdilər. Abbas Mirzənin tərəfdarlarından olmuş Kolanı Əliməmməd və digərlərinin adlarının mənbələrdə göstərilməsi də fikrimizi təsdiq edir. Ola bilsin ki, bu seçimə Qarabağ kolanılarının bir qisminin təxminən 200 il əvvəl I Şah Abbas

Cecim. Yun. Xovsuz. 136x122. XX əsrin əvvəlləri. Badamlı kəndi, Şahbuz rayonu, Naxçıvan MR.



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

tərəfindən Naxçıvandan Qarabağa köçürülməsi də təsir etmişdir. Onlar öz yurdlarına geri qayıtmağa maraqlı idilər. Eyni zamanda mömin müsəlman əhalinin xristian işğalını qəbul etməməsi də əhəmiyyətli amil olmuşdur. Naxçıvana gətirilən tayfanın harada yerləşdirildiyi mənbələrdən məlum deyil. Lakin Şahbuz rayonunun Kolanı kənd sakini Təbriz Orucovun tərtib etdiyi kənd əhalisinin nəsil şəcərəsinə əsasən, kəndin Kolanı tayfası təxminən 200 il əvvəl Qarabağdakı Xaçın çayı ərazisindən (Qarabağda Xaçın və Qabartı çayı boyunca Kolanı tayfasına məxsus onlarla kənd olmuşdur) gəlmişdir. Yerli sakinlərin də fikrincə, 200 il əvvəl Ağdam rayonu ərazisindəki Kolanı kəndindən gələn bir neçə ailə Şahbuz rayonu ərazisindəki müasir Kolanı kəndinin əsasını qoymuşlar. Yerli əhalinin Ağdamın Kolanı kəndində olan qohumları ilə əlaqələri son zamanlaradək qalmışdır. Qeyd edək ki, bu illərdə Naxçıvana köçürülən kolanılar Qarabağın tarixi əhalisi olsa idi, keçən 200 ildən bir qədər artıq dövrdə ayrıca bir dağ kəndi olan Şahbuz rayonunun Kolanı kəndi sakinlərinin ləhcəsində Qarabağ ləhcəsi elementləri qalardı. Lakin indiki halda bu kənd sakinlərinin ləhcəsində Naxçıvan ləhcəsi elementləri daha güclüdür. Yerli sakinlərin fikrincə, kolanılar Qarabağdan gəldikdən sonra Naxçıvan ərazisində Kolanı, Qarabağlar, Qaraboya, Xınzırək və Badamlı kəndlərində yerləşmişlər. Yaşayış yeri üçün məhz bu kəndlərin seçilməsi də torpağa olan bağlılığından irəli gələ bilərdi. 1828-ci ilə aid mənbədə bu kənddə 14 ailənin məskunlaşdığı göstərilmişdir. Torpağa olan bağlılıqdan və rusların girov tədbirlərinin nəticəsi olaraq kolanıların böyük hissəsi Qarabağı tərk etməmişdi. Güman etmək olar ki, çar Rusiyası Naxçıvanı və İrəvanı işğal etdiyi zaman Abbas Mirzənin tərəfinə keçərək bu bölgələrdə məskunlaşan tayfanın böyük hissəsi Araz çayından cənuba keçmişdir. Fikrimizə sübut olaraq Rusiyanın Naxçıvanı işğal etməsini, rus hakimiyyəti zamanı 1400 azərbaycanlı ailənin bölgəni tərk etdiyini və bu illərdə 83 kəndin boş qaldığını göstərmək olar (17, s.71). Ermənilərin Azərbaycan ərazisinə yerləşdirilməsi prosesindən sonra Kolanı Qışlağında (indiki Şahbuz rayonunun Kolanı kəndi) 14 ailənin yaşadığının qeyd olunması göstərir ki, ailə sayında artım olmamışdır. Deməli, ermənilər bu kəndə yerləşdirilməmişdilər. Mənbədə bu kənddə yaşayan sakinlərin adları çəkilir. Bu da kənddə ermənilərin olmadığını göstərir. Həmin dövrdə çar hökuməti məmurlarının ədalətsizliyinə qarşı Qaçaq Mirzalı adı ilə tanınmış Kolanı kənd sakini əhaliyə taxıl vermək istəməyən erməni keşişini öldürmüşdür. Və uzun müddət Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrində çar hökumətinə qarşı mübarizə aparmışdır. Maraqlıdır ki, sovet hakimiyyətinin yarandığı illərdə Kolanılı Qaçaq Mirzənin də adına rast gəlirik. Qaçaq Mirzalının 1830-cu illərdən sonra qaçaqçılıq etdiyi söylənilir. Qaçaq Mirzənin fəaliyyəti isə sovet hakimiyyətinin yarandığı dövrə təsadüf edir. Qaçaq Mirzə öz adamları ilə bərabər Naxçıvana hücum etmiş erməni daşnaklarına qarşı mübarizədə A.Şadlınskinin başçılı etdiyi dəstədə ("Qırmızı tabor") iştirak etmişdir. O, 11 nəfərlik dəstə ilə A.Şadlınskinin taboruna qoşulmuşdur. Qaçaq Mirzənin sonrakı taleyi barədə hələlik məlumat əldə edə bilməmişik.

Xalça. Yun. Xovlu. 320x141. XX əsrin əvvəlləri. Kolanı kəndi, Shahbuz rayonu, Naxçıvan MR.



Şahbuz rayonunun Kolanı kəndi yaxınlığında, Aşağı Qışlaq kəndi ilə Biçənək kəndi arasında olan "Mirzə vurulan yer" adlı qayalıqlar onun adı ilə bağlı ola bilər.

1905-1907-ci illərdə indiki Şahbuz rayonunun Kolanı kəndi və Vedi mahalının kolanılar yaşayan kəndləri ermənilər tərəfindən hücumlara məruz qalmışdır. 1897-ci ildə Vedi mahalının bu kəndində 886 nəfər əhali



yaşayırdısa, ermənilərin hücumları nəticəsində 1904-cü ildə bu kənddə əhalinin sayı 728 nəfərədək azalmışdır. Şahbuz rayonunun Kolanı kəndinin sakinlərinin bildirdiyinə görə, kənd əhalisi dövlətdən heç bir kömək almadığından, özünü müdafiə etmək üçün mübarizəyə başlamış, ermənilər bu döyüşlərdə kəndi ələ keçirə bilməmiş və geri çəkilməyə məcbur olmuşlar.

1918-ci ildən Azərbaycanın demək olar ki, bütün bölgələrində olduğu kimi, Naxçıvanda da erməni quldurları tərəfindən qırğınlar törədilmişdi. Bu dövrün xəritələrində Şahbuz rayonunun Kolanı kəndinin adına "Kolanı Qışlağı" formasında rast gəlinir. Bu illərdə silahlı quldur dəstələri yaradan ermənilər ətraf kəndlərə və o cümlədən bu kəndə hücumlar etmiş, bir neçə nəfəri qətlə yetirmiş və mal-qaranı oğurlayıb aparmışdılar (11, s.78). Lakin bu illərdə də ermənilər kəndi zəbt edə bilməmişdilər.

1918-ci ildə Vedi mahalının qəhrəman övladları A.Şadlınskinin başçılığı ilə ermənilərdən müdafiə hərəkatına qoşulmuşdular. Məlumata görə, A.Şadlınski mahalın əksər dinc sakinini, o cümlədən Kolanı kəndinin əhalisini ingilis hökumətinin dəstəklədiyi erməni daşnaklarının qırğınından qorumaq üçün Naxçıvan vasitəsi ilə İrana keçirir. Həmin əhali İranın Xoy, Mərənd və başqa şəhərlərinə yerləşdirilir. Bu əhalinin çox hissəsi sovet hakimiyyətinin ilk illərində geri qayıdır, həmçinin İranda qalanlar da olur. Abbasqulu bəyin özünün başçılıq etdiyi "Qırmızı tabor" isə İran ərazisində bir ay qaldıqdan sonra Naxçıvana qayıdaraq mübarizəni davam etdirir. Bu səfərdən geri qayıdan bir qrup kolanıların Babək rayonunun Şıxmahmud kəndində məskunlaşdığı bildirilir.



Xalça. Yun. Xovlu. 194x116. XIX əsrin sonları. Xınzırək kəndi, Şahbuz rayonu, Naxçıvan MR.

1920-1929-cu illərdə, Qars müqaviləsinin şərtləri pozulmaqla, tarixi Naxçıvan əraziləri olan Vedinin, Zəngəzurun bir hissəsinin və Mehrinin sovet Ermənistanına "pay verilməsi"nin nəticəsində Naxçıvan blokadaya düşür.

Sovet hakimiyyətinin ilk illərində Şahbuz rayonunun Kolanı kəndinin adı "Keləzmin" olaraq dəyişdirilir. 1930-cu illərin repressiyaları bu bölgənin əhalisindən də yan keçməmişdir. Bu kəndin sakinlərinin bəziləri Keçili kəndi sakini Qaçaq Quşdanın üsyanına qoşulur. Hökumət qüvvələri tərəfindən məğlub edildikdə üsyançılar və onların ailə üzvləri olan yüzə yaxın insan Kolanıya qaçmış, sonradan isə İrana keçmişdilər. Üsyan iştirakçılarının bəzilərinin ailə üzvləri isə Sibirə sürgün olunmuşdur.

Rus tədqiqatçısı K.N.Smirnov 1933-cü ildə Naxçıvan ərazisində olmuş, Şahbuz rayonunun Kolanı kəndinin "Kolanı Qışlağı" adlandığını və 55 tatar (ruslar Azərbaycan türklərini bəzən "tatar" adlandırırdılar) ailəsindən ibarət bu kəndin Qoşaçay (indiki Naxçıvançay) sahilində yerləşdiyini bildirmişdir.

Sovet hakimiyyəti illərində elektrikləşdirmə və avtomobil yollarının salınması adı altında Naxçıvanın bir sıra kiçik kəndləri ləğv edilmişdir. Şahbuz rayonunun kolanıların da yaşadığı Qaraboya kəndi də ləğv edilmiş və onun əhalisi əsasən həmin rayonun Badamlı kəndinə yerləşdirilmişdir. Bir qədər əvvəl kolanıların da yaşadığı digər bir kiçik kənd olan Xınzırək kəndi də ləğv olunmuş və əhalisi əsasən qonşu Biçənək kəndinə yerləşmişdirilmişdi. Güman etmək olar ki, sovet hökuməti tərəfindən Xınzırək və Qaraboya kəndlərinin də ləğv edilməsi azərbaycanlılar əleyhinə yönəldilmiş

tədbirlərdən idi. Qeyd etmək lazımdır ki, Qarabağda və Şirvanda Kolanı tayfalarının məskunlaşdığı bir çox yaşayış məskənləri də ləğv edilmiş, əhali öz tarixi yaşayış yerlərindən uzaqlaşdırılmışdı. Məqsəd bu əhali üzərində nəzarəti gücləndirmək, assimilyasiya tədbirləri həyata keçirmək, boş qalan ərazilərə erməniləri yerləşdirmək idi. Onlar bu mənfur planlarını Qarabağda reallaşdıra bilmişdilər.

Qeyd etmək zəruridir ki, Kolanı kəndində tarixən Kolanı tayfası ilə yanaşı, Qazaxlı və Gülümlü tayfaları da yaşamışdır.

***

Tarixi Şirvan ərazisinin ən böyük tayfalarından biri olan kolanılar haqqında geniş araşdırmalar aparan tədqiqatçı-alimlərdən biri də Nurəddin Bəndəliyevdir. Onun tədqiqatlarına əsasən, Qarabağdan Şirvana köçürülən Kolanı elatının Şamaxı şəhəri yaxınlığındakı müasir Xilmilli və Qızmeydan kəndləri ərazisində yerləşdiyi müəyyənləşdirilmişdir. Qarabağdan kolanıların böyük qisminin Şirvana göndərilməsi 1795-ci ildə baş versə də, onların Qarabağdan və Naxçıvandan bu bölgəyə köçürülməsi və yerləşdirilməsi daha əvvəlki dövrlərə - XVI əsrə təsadüf edir. Qeyd edək ki, onların ilk olaraq Şirvan bölgəsinə yerləşmə tarixi elə XVI-XVII əsrlər təxmin edilir (7, s.63-66, 16, s.7). Girdə yaylağında kolanıların məskunlaşmasından



Kilim. Yun. Xovsuz. 335x172.
XX əsrin əvvəlləri. Düzənlik kəndi,
Qobustan rayonu.



Kilim. Yun. Xovsuz. 364x186.
XX əsrin əvvəlləri. Poladlı kəndi,
Qobustan rayonu.

əvvəl digər tayfalar da olmuşdur. Lakin yaylaq ərazisində mövcud olmuş Dağ Kolanı kəndinin qəbristanlığının tarixi, yerli sakinlərin fikrincə, XV əsrə aiddir. Onların Naxçıvandan və Qarabağdan Şirvan ərazisinə daha əvvəl köçməsi səbəbləri və faktlar barədə yuxarıda məlumatlar verilmişdir. Osmanlı hücumları, Şah Təhmasibin "yandırılmış torpaq" taktikası ilə köçürmə siyasəti bu tarixi yarım əsr geriyə apa-





Xurcun (fraqment). Yun. Xovsuz. 61x57.
XIX əsrin sonları. Uzunbabalı kəndi,
Neftçala rayonu.



Məfrəş (fraqment). Yun. Xovsuz. 115x100.
XX əsrin əvvəlləri. Poladlı kəndi,
Qobustan rayonu.



Xurcun (fraqment). Yun. Xovsuz. 59x53.
XX əsrin ortaları. Kolanı kəndi,
Salyan rayonu.

rır. Bu tayfanın Şirvana məhz XVI əsrdə Qarabağdan və Naxçıvandan gəlməsi onların Şirvanda ilk məskunlaşma tarixi kimi qəbul oluna bilməz. Məlum olduğu kimi, Şirvan ərazisində türk tayfalarının məskunlaşma tarixi qədim dövlərə təsadüf edir. Kolanı tayfasının bəzən "Kolan" olaraq da adlanmasına Şirvanda da rast gəlinir. N.Bəndəliyev kolanıların Goran, Qaraoğlanlı, Pirəvənd, Osallı, Türəni, Şadılı, Həzili, Ağsaqlı, Lolaylı və Alataxtalı kimi qollarının XVIII əsrdə Şirvanda məskunlaşdıqları haqqında məlumat verir. XVIII əsrdə Quba xanlığının Şabran mahalında 60 həyətdən ibarət Kolanı və 130 həyətdən ibarət Osallı kəndləri olmuşdur. Bu kəndlərin yaranma tarixinin araşdırılmasına ehtiyac vardır. Qubalı Fətəli xanın Qarabağa hücümları zamanı çoxlu sayda əhalini köçürüb aparması faktı da bu məsələyə aydınlıq gətirə bilər. Eyni zamanda, mənbələrdə 1796-cı il köçürməsi zamanı da bu əraziyə Kolanı tayfalarının köçməsi haqqında məlumatlar vardır. I rus-İran müharibəsi zamanı Şirvanın bəzi tayfaları Pirqulu xan Qacarlı tərəfindən Muğan-Talış bölgəsinə köçürülür. Şirvanlı Mustafa xanın apardığı danışıqlardan sonra bu tayfalardan geri qaytarılanlar olmuşdur. Köçürülən tayfalar içərisində kolanıların da olduğu ehtimalı vardır. Biləsuvar rayonu ərazisində kolanıların məskunlaşdırılması, İranın Muğan bölgəsindəki Kolan kəndi bu köçürmənin nəticələrindən ola bilər.

1840-1849-cu illərdə Şirvanda kolanıların yaşadıqları ərazilərə rus koloniyaları yerləşdirilmişdi. 1840-cı ildə əhalisi ruslardan ibarət olan Xilmilli, 1849-cu ildə isə Astraxanka (Qızmeydan) kəndləri yaradılmışdı. Beləliklə, Kolanı elatı öz ərazilərindən çıxarılmış və həmin illərdə Şamaxı şəhərinin yaxınlığında, indiki Sabir qəsəbəsinin şimal-şərqində yerləşdirilmişdilər. Bu ərazi heyvandarlıq üçün əlverişsiz olduğundan tayfa dağlıq bölgəyə - Girdə yaylasına köçmək məcburiyyətində qalmışdı. Sayca get-gedə daha da çoxalan tayfa heyvandarlıqla məşğul olurdu. Əhali Kür çayı sahillərində qışlayır və zaman keçdikcə bu ərazilərdə məskunlaşaraq bir sıra yaşayış məntəqələrinin əsasını qoyur. Şamaxı bölgəsinin kolanıları XVIII əsrdə müasir Şabran və Quba rayonunun ərazisinə (16, s.18), XIX əsrin ortalarında indiki Siyəzən rayonunun Kolanı kəndinə, XIX əsrin sonlarında indiki Neftçala rayonunun Uzunbabalı kəndinə, 1914-1915-ci illərdə indiki Sabirabad rayonunun Kolanı kəndinə yerləşirlər. Hacıqabul rayonunda əsasən tayfanın Türəni qolundan olanlar məskunlaşmışdılar. Sonradan Girdə yaylasında

Xalça. Yun. Xovlu.
137x104.
XX əsrin ortaları.
Qaraçala kəndi,
Salyan rayonu.





Duz qabı. Yun. Xovlu. 48x41. XIX əsrin sonları. Xilmilli kəndi, Qobustan rayonu.



Duz qabı. Yun. Xovsuz. 71x49. XIX əsrin sonları. Qızmeydan kəndi, Şamaxı rayonu.

Xalça. Yun. Xovlu. 222x126. XX əsrin əvvəlləri. Poladlı kəndi, Qobustan rayonu.



olan Kolanı kəndi ilə Kür sahilində olan Kolanı kəndini fərqləndirmək üçün, Girdə ərazisində olan kəndin adına "Dağ" sözü əlavə olunmuşdur. Salyan rayonun Kolanı kəndi 1930-1945-ci illərdə Dağ Kolanı kəndindən köçən tayfa və tirələr tərəfindən yaradılmışdır. 1918-ci ildən ermənilərin hücumlarına qarşı Girdə yaylasında, Dağ Kolanıda yaşayan camaat özünümüdafiə dəstəsi yaradaraq mübarizə aparmışdır. Hacı Rüstəm 1918-ci ildə Dağ Kolanı camaatının ermənilərə qarşı mübarizədə böyük qəhrəmanlıqlar göstərmiş şəxsdir. Onun başçılığı ilə ermənilərlə mübarizə aparan kolanılar Osmanlı ordusunun gəlişinə qədər məğlub olmamışdılar. Hacı Rüstəm qəhrəmanlığına görə Osmanlı ordusu tərəfindən təltif edilmişdir. Ermənilər 1937-ci ilin repressiyaları zamanı silah gücünə torpağından çıxara bilmədikləri Hacı Rüstəmi fitnə ilə Sibirə sürgün etdirirlər. O yaşlı olduğundan sürgündən qayıtmır. 1918-ci ildə Hamazaspın başçılığı ilə Quba bölgəsində 122 kənd dağıdılır. Bu kəndlərdən birinin Kolanı kəndi olduğu o dövrün sənədlərində öz əksini tapmışdır.

1950-ci illərdə Mircəfər Bağırov tərəkəməliyin ləğv edilməsi barədə fərman verir. Bu fərmanla Şirvanın Dağ Kolanı kəndində yaşayan əhaliyə məxsus dəvələrin və atlarının bir qismi müsadirə edilir. Nəticədə kolanılar yaylaq bölgələrindən arana, daha çox Salyan və Sabirabad rayonlarına köç etməyə məcbur olurlar. Mircəfər Bağırovun bu fərmanının arxasında, çox güman ki, hökumət nəzarətindən kənarda olan, böyük və güclü bir kütləyə çevrilən Kolanı camaatını da parçalamaq niyyəti vardı. M. Bağırov hələ 1920-ci illərə təsadüf edən məruzəsində kolanıları "Qarabağın ən narahat tayfası" adlandırmışdı. Eyni zamanda o, bu tayfanın da iştirak etdiyi 1930-cu illər üsyanları haqqında da kifayət qədər



məlumatlı idi. Sözügedən fərmandan sonrakı on il ərzində, yəni 1950-1960-cı illərdə kolanılar Ağsu şəhərinə, Salyan, Hacıqabul, Şirvan, Qobustan rayonlarının Poladlı, Qaraçala, Kərimbəyli, Xələc, Yolüstü, Varlı, Çadırlı, Yenikənd, Hacı Qəhrəmanlı, Muğanlı, Düzənlik, Arxarası və s. kimi yaşayış məntəqlərinə köçmüşdülər (16, s.54). Bu köçlərin nəticəsi olaraq Şirvan kolanılarının ana yurdu olan Dağ Kolanı kəndi tərk edilmişdi. 1972-ci ildə kənd yenidən bərpa edilmişdir, sonralar geri qayıdan bəzi ailələr də 2005-ci ildə kəndi tərk etmişdi. Beləliklə, kənd ləğv olunmuşdur. Dağ Kolanı camaatının bir neçə rayonda məskunlaşmasına baxmayaraq, onlar indiyədək bir-birləri ilə əlaqəni itirməmişlər. Dağ Kolanıya olan həsrət duyğusu N.Bəndəliyevin bir çox şerlərində, N.Hacıheydərlinin "Dağ Kolanı" dastanında və başqa əsərlərdə öz əksini tapmışdır.

...



Xurcun. Yun. Xovsuz. 135x63. XX əsrin əvvəlləri. Poladlı kəndi, Qobustan rayonu.



Xurcun. Yun. Xovsuz. 134x62. XX əsrin əvvəlləri. Kolanı kəndi, Siyəzən rayonu.

Kolanı tayfası Qərbi Azərbaycan torpaqlarının qədim sakinlərindən olmuşdur. Göyçə gölü sahilində XVIII əsrdə böyük Kolanı tayfalarının olması haqqında mənbələrdə məlumatlara rast gəlinir. Təəssüf ki, bölgədə bu tayfanın tarixi daha çox sürgünlərlə və qırğınlarla yadda qalır. Tayfanın Qərbi Azərbaycan torpaqlarında daha sıx məskunlaşdığı bölgələrdən biri Göyçə gölü sahilləri olmuşdur. 1728-ci ilə aid mənbələrdə bu ərazidə kolanıların yaşaması barədə məlumatlara rast gəlirik. Həmin dövrdə Göyçə nahiyəsində Kolanı kəndi haqqında bəhs olunur. Bu kəndin ödədiyi verginin miqdarına əsasən, Göyçə nahiyəsinin 7-ci böyük kəndi olduğu, nahiyəyə tabe olan digər 37 kənddən böyük olduğu məlum olur. Artıq qeyd etdiyimiz kimi, Göyçə gölündən Tərtərədək olan ərazi tarixi Kolanı məskənləri idi. Eyni zamanda XVI əsrdə Dərələyəz və Vedi mahallarında olan Kolanı kəndləri barədə Naxçıvanda yaşayan kolanılar bölməsində məlumat verilmişdir.

Xanlıqlar dövründə İrəvan xanlığının ərazisində də bu tayfanın nümayəndələri xeyli sayda məskunlaşmışdılar. Gürcü çarı II İrakli İrəvan xanlığına hücum etdiyi zaman kolanılar İrəvan xanlığının müdafiəsində mühüm rol oynamışdılar. Qarabağ xanı Pənahəli xanın Kolanı məskəninin böyük hissəsini Qarabağ xanlığına birləşdirməsindən sonra Kolanı tayfası iki yerə parçalandı. Və onların bir hissəsi İrəvan xanlığının ərazisində qaldı. Bu parçalanmadan yaranan şərait ermənilər üçün əlverişli idi. Belə ki, XVIII əsrin II yarısında Həmədan mənşəli erməni İosif Eminin rəhbərliyi altında 2000 nəfərdən artıq muzdlu quldur İrəvan xanlığının ərazisində - Göyçə gölü sahilində yaşayan kolanıların üzərinə hücum etmiş və dinc əhalini qırğına məruz qoymuşdular. Göyçə gölü sahilində yerləşmiş bu kənd sonrakı dövr mənbələrində "Kolanıqırılan", "Kolaqran", "Kyolanıqran", "Kolagirən" formalarında qeyd olunmuşdur.

1812-ci ildə Abbas Mirzənin təlimatı ilə Qarabağ ərazisindən İrəvan bölgəsinə kolanılar da köçürülmüşdür. 1826-1828-ci illərdə ermənilər Karbibasar mahalının Ti-

murxan Kolanı kəndini dağıdır və əhalini öz yurdlarından çıxarmağa müvəffəq olurlar. Tarixi mənbələrdən Vedi mahalının Kolanılar yaşayan Xunut (Xınıt Qaraqoyunlu) kəndinin 1832-ci ildə dağıdıldığı məlum olur. Sonralar onlardan bəzilərinin öz yurdlarına geri qayıtması nəticəsində, 1873-cü ildə kənddə yaşayan azərbaycanlıların sayı 114 nəfər olmuşdur. İrəvan qəzasının Zəngibasar ərazisi, Araz çayının sahilindəki Şor Kolanlı kəndi 1905-1907-ci illərdə ermənilərin hücumlarına məruz qalmışdır. Mənbələrdə bu kənd "Rəncbər" və "Rəncbərə-Cəfərxan" adları ilə də qeyd olunmuşdur. 1916-cı ildə bu kəndin 300 nəfər əhalisi vardı. Vedi mahalının kolanılar yaşayan kəndlərinin bu illərdə ermәni hücumlarına məruz qalması barədə yuxarıda məlumat verilmişdir. Üçkilsə, Alagöz dağının qərb tərəfində yerləşən Aralıq Kolanlı (bəzi mənbələrdə Aralıx) kəndlərinin əhalisi 1914-cü ildə 887 nəfərdən 1916-cı ildə 772 nəfərə, 1922-ci ildə isə 224 nəfərədək azalmışdır. 1919-cu ildən kəndə xaricdən gətirilən ermənilər yerləşdirilmişdir. 1914-cü ildə 318 nəfər azərbaycanlının yaşadığı Xunut (Xınıt Qaraqoyunlu) kəndi 1918-1920-ci illərdə terrorun nəticəsi olaraq xarabalığa çevrilmişdir. Bu illərdə dağıdılan Kolanı kəndləri içərisində Qızılvərən və Qaratorpaq (Xunut Qaratorpaq) kəndləri də olmuşdur. Qızılvərən kəndi bir müddət sonra yenidən canlanmağa başlasa da, bu inkişaf davamlı olmamışdır. Kənd 1918-ci ildə Andranikin başçılığı ilə erməni daşnaklarının hücumuna məruz qalmışdı. Müdafiəsiz kənd əhalisi bu hücumlardan yaxa qurtarmaq üçün Azərbaycana və Türkiyənin İğdır bölgəsinin Taşburun kəndinə köçmüşdür. Mənbələrdə 1919-cu ildə Göyçə sahilində Kolanı Qırılan kəndinin xarabalıqlarının qaldığı və həmin vaxtdan burada gəlmə ermənilərin məskunlaşdığı göstərilir. Zəngəzurun Kolanı kəndi də 1918-1920-ci illərdə Andranikin başçılıq etdiyi quldur dəstəsinin hücumlarına məruz qalmışdır. Sovet hakimiyyəti illərində kənd ləğv olunmuşdur. Bu kəndlərdən bəzilərinin əhalisinin bir qismi sovet dövlətinin yaranmasından sonra öz doğma yurdlarına qayıtmağa başlamışdı. Məsələn, 1922-ci ildə Şor Kolanı kəndinə geri qayıdanların sayı 122 nəfər olmuşdur. Üçkilsənin Xaraba Kolanı kəndi əhalisi 1914-cü ildə 516 nəfər olmuşdur. Lakin 1918-1920-ci illərin qırğınları nəticəsində əhali məhv edilmiş və ya kənddən çıxarılmışdır. Nəticədə, 1931-ci ildə əhalinin sayı 167 nəfərədək azalmışdır. Üçkilsə ərazisində "Hacı Əhməd Kolanısı" adlanan kənd də olmuşdur. 1918-ci ildə hücuma məruz qalan türk yaşayış məskənlərindən biri də bu kənd olmuşdur. Bu illərdə İrəvan ərazisində viran edilən yaşayış məntəqəsinin adı "Kelandu" olaraq dəyişdirilmişdi.

1930-cu illərdə sovet hökumətinin kolxozlaşdırma və digər zorakı tədbirlərinə qarşı Vedi mahalında xalq üsyan baş qaldırmışdı. Üsyana başçılıq edən Kolanı kəndinin kəndxudası Abbasqulu bəy bizə "Axırıncı aşırım" filmindən tanışdır. 1930-cu illərdə Vedi mahalının Şidili və İrəvan yaxınlığındakı Şor Kolanı kəndlərinin əhalisinin bir qismi köçərək İğdırın Taşburun kəndinə



Xalça. Yun.
Xovlu. 184x91.
XIX əsrin sonları.
Şidili kəndi,
Vedi mahalı,
Qərbi Azərbaycan.





Xalça. Yun.
Xovlu. 198x115.
XX əsrin əvvəlləri.
Aralıq Kolanı kəndi,
Üçkilsə rayonu,
Qərbi Azərbaycan.



Xurcun (fraqment). Yun. Xovsuz. 66x48. XX əsrin əvvəlləri.
Xunut kəndi, Vedi mahalı, Qərbi Azərbaycan.

yerləşmişdir. Bu əhalinin varisləri hal-hazırda orada yaşayırlar. İrəvanın Kolanı kəndindən olan əhalinin digər hissəsi isə Azərbaycana köçmüşdür. Bu illərdə sovet hökumətinin və ermənilərin qətliamları ucbatından Vedi mahalından və Qərbi Azərbaycanın digər bölgələrindən Türkiyəyə böyük əhali axını olmuşdur. İğdır bölgəsinin Taşburun, Qaraqoyunlu, Mələkli, Aralıq və başqa kəndlərdə Şor Kolanı, Kolanı, Qarxun, Şidili, Almməmmədli kəndlərindən olan əhali məskunlaşmışdır. 1920-ci ildən xarabaya çevrilən Qaratorpaq kəndinə geri qayıtmaq yalnız sovet hakimiyyətinin sonrakı illərində mümkün olmuşdur. Lakin 1939-cu ildə kənd ləğv olunmuş, onun əhalisi isə Kolanlı, Bağçacıq və Şirazlı kəndlərinə köçürülmüşdür.

1950-ci ildə SSRİ-nin dekreti ilə Vedi mahalının Kolanı kəndi əhalisi Salyan rayonu ərazisinə deportasiya olunmuşdur. Deportasiya qərarı elə sürətlə icra olunurdu ki, hətta yerli əhaliyə öz əşyalarını götürmək və ya evlərini satmaq üçün belə şərait yaradılmamışdı. 1949-cu ildə bu kənd köçürüləndə əhalinin sayı 900 nəfərə yaxın idi. Ümumiyyətlə, Vedi mahalının əhalisi əsasən Sabirabad, Hacıqabul və Salyan rayonlarının ərazisində yerləşdirilmişdi. Kürün bir qolu olan Akkuşa çayı sahilində yerləşdirilmiş Vedi kolanılarından ibarət Şorsulu kəndinin əhalisinin əksəriyyəti qısa müddət ərzində əlverişsiz şərait üzündən digər bölgələrə-xüsusən Neftçala, Tərtər və Yevlax rayonları ərazilərinə köçmək məcburiyyətinfə qalmışdılar. Qərbi Azərbaycanda da boş qalmış Kolanı kəndlərinə xaricdən gətirilən ermənilər yerləşdirilmişdi. Bir müddət son-

Xurcun. Yun. Xovsuz. 131x52. XX əsrin
əvvəlləri. Şor Kolanı kəndi,
Zəngibasar mahalı, Qərbi Azərbaycan.



ra geri qayıdan bəzi ailələr də ermənilər tərəfindən kənddən çıxarılmışdır. Həmin ailələr, həmçinin İ.Stalinin ölümündən sonra qayıdan ailələrin bir çoxu qonşu Bağçacıq kəndinə yerləşmişdilər. 1957-ci ildə Kolanı kəndi tamamilə xarabaya çevrilmişdi. Ermənilərin yeni hiylələri nəticəsində mərkəzləşdirmə, kiçik kəndləri aran kəndlərinə endirmə siyasəti həyata keçirilmiş və Bağçacıq kəndi 1957-ci ildə ləğv olunmuşdu. Kəndin əhalisi Xalisə kəndinə köçürülmüşdü. Qeyd edək ki, Xalisə kəndinin azərbaycanlı əhalisi 1988-ci ildə deportasiya olunmuşdur.

Üçkilsə rayonunun Xaraba Kolanı kəndi 1935-ci ildə "Kolanı" adlanmışdır. Aralıq Kolanı və Yuxarı Kolanı kəndlərinin əhalisi isə 1948-1949-cu illərdə tamamilə Azərbaycana deportasiya edilmişdir. Kənd bir müddət "Aralıq" adlandırılmış, 1978-ci ildə isə ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsində mühüm rol oynamış A.S.Qriboyedovun şərəfinə "Qriboyedov" adlandırılmışdır. Şor Kolanı kəndinin əhalisi 1988-ci ilin noyabr-dekabr aylarında yenidən deportasiya edilmişdir.

Çar Rusiyası və sovet tarixşünaslığında Göyçə gölü sahilindəki "Kolanıqırılan" toponimi "kolanıların osmanlılar tərəfindən qırıldıqları yer" kimi qələmə verilmişdir. Bu yalanla azərbaycanlıların nəzərində osmanlıların, daha doğrusu, Türkiyənin düşmən obrazını yaratmaq nəzərdə tutulurdu. Fikrimizə sübut olaraq 1728-ci ilə aid bir sənəddə Göyçə gölü sahilində "Kolanıqırılan" kimi yer adının olmadığını və kəndin adının "Kolanı" olduğunu göstərmək olar. Deməli, bu da qırğının ya Sultan Səlim zamanında, ya da sonralar "şiə qırğını" adı ilə osmanlılarla əlaqələndirilməsinin yanlış olduğunu sübut edir.

Yuxarıda göstərildiyi kimi, qırğın ermənilərin əli ilə törədilmişdir. 1862-ci ildə Tiflisdə nəşr edilmiş bir məcmuədə Göyçə mahalında "Kolanıqırılan" adı qeydə almışdır. Ermənilər bu yer adını "Kələqıran", "Kolagirən" və s. formalarda təhrif etmişlər. Ermənilərin təsiri ilə Vedi mahalını azərbaycanlıların yaddaşından silmək üçün "Axırıncı aşırım" filmi Vedi mahalının Qarabağlar kəndində deyil, Naxçıvanda yerləşən Qarabağlar kəndində çəkilmişdir. Əslində isə, filmdə adı çəkilən və K.İsmayılın döyüşdüyü Kolanı və Qarabağlar kəndləri Vedi mahalına aid olmuşdur. Ermənistanın Azərbaycana qarşı 1987-ci ildən yeni mərhələdə başlayan təcavüzkarlıq siyasəti nəticəsində 1989-cu ilədək Qərbi Azərbaycanda yaşayan bütün azərbaycanlılar, o cümlədən kolanılar öz tarixi yurdlarını itirmişdilər.

**Ədəbiyyat:**


1. Abbasoğlu B. Kolanı-Şəhidlər yurdu. Bakı: Səda, 1997, 175 s.
2. Azərbaycan Sovet Ensklopediyası, V c. Bakı: Azərbaycan SSR Dövlət Nəşriyyatı, 1981, 592 s.
3. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı: NPB, 1999, 588 s.
4. Bağırov A.N. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 336 s
5. Bağırov A.N Naxçıvan toponimlərinin linqivistik xüsusiyyətləri. Bakı: Elm, 2002, 287 s.
6. Baxşəliyev V. Naxçıvanın qədim tayfalarının mənəvi məd. Bakı: Elm, 2004, 320 s.
7. Bəndəliyev N.S. Dağlıq Şirvanın toponimləri. Bakı: Elm, 2009, 352 s.
8. Ələkbərli Ə.Y.Qədim türk oğuz yurdu - "Ermənistan" Bakı: Sabah, 1994
9. Ələkbərli Ə.Y. Qərbi Azərbaycan, I cild. Bakı: Ağrıdağ, 2000, 562 s.





10. Fərzəlibəyli Ş.F. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər / Naxçıvan. Bakı: Elm, 1999, s. 79-94.
11. Hacıyev İ. Azərbaycan Xalq Cumhuriyyəti və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 384 s.
12. Hacıyev İ. Ermənilərin Naxçıvana qarşı ərazi iddialarının əsassızlığı və tarixi həqiqətlər // Naxçıvan: Tarixi gerçəklik, müasir durum və inkişaf perspektivləri (9-10 iyun, 2006-cı il beynəlxalq simpozium materialları). Bakı: Təhsil, 2006, s. 33-47
13. Kırzıoğlu F. Osmanlıların Qafqaz ellerini fethi (1451-1590). Ankara:Türk Tarih Kurumu Basımevi, 1993, 550s.
14. Qarabağnamələr. Bakı: Yazıçı, 1991, 450 s.
15. Qeybullayev Q.Ə. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 s.
16. Qəniyev S. Dağ Kolanı-elim mənim. Bakı: Nurlan, 2001, 316 s.
17. Quliyev N.Ə. Naxçıvan xanlığının əhalisi. Bakı: Elm, 2006,163 s.
18. Mustafazadə T. Qarabağ xanlığı. Bakı: Sabah, 2009, 333 s.
19. Mustafayev Q. "XVIII-XIX əsr qaynaqları "Kolanı mahalı" haqqında", Azərbaycan Dillər Universitetinin "Elmi Xəbərlər" jurnalı, Bakı: 2003
20. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008, 519 s.
21. Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z. Bünyadov və t.e.n. H. Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
22. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş vermiş erməni-müsəlman davasının tarixi. Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, 1991, 144 s.
23. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII - XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı. Elm, 2000, 230 s.
24. Səfərli F.Y. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
25. Şərifli M.X. IX əsrin II yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: Elm, 1978, 343 s.
26. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab palatası, 1992, 144 s.
27. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва: 2000, Московская типография №12а, 2000, 176 с.
28. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1990, 156 с.


*(Məqalənin hazırlanması zamanı bir çox internet materiallarına və yerli əhalinin yaddaşında yaşayan məlumatlara da istinad edilmişdir)

**_Shahin Ahmadov_**
**_historian_**

### *Kolani*

***Key words:*** *Kolani tribe, turkic, village, Karabakh, Vedi, Nakhchivan, Shirvan*

### *Summary*

According to historical sources, historically Kolani Oghuz turkic tribes have lived in Azerbaijan districts – Karabakh, Nakhchivan, Iravan, Shirvan, Mugan and so on. As a result of the armenisation and invasion policies, Kolani tribes were forced to leave their historical lands of Iravan and Karabakh along 20th century.

**_Шахин Ахмедов_**
**_историк_**

### *Кёланы*

***Ключевые слова:*** *племена Кёланы, тюрки, село, Карабах, Веди, Нахчыван, Ширван*

### *Резюме*

Согласно историческим источникам, огузско-тюркские племена Кёланы исторически проживали в таких регионах Азербайджана, как Карабах, Нахчыван, Иреван, Ширван, Муган и другие. В результате политики арменизации проводимой со стороны Российской империи, и захватнической политики Армении племена Кёланы, проживающие в Иреване и Карабахе, на протяжении XX века были вынуждены покинуть свои исконные земли.